BAKININ TARİXİ ŞƏHƏR STRUKTURUNUN TRANSFORMASİYASI

Sabir ORUCOV[*]
Aytən SƏLİMOVA[**]

Xülasə: İçərişəhər - Bakının orta əsrdə formalaşmış tarixi mərkəzi olub, yüksək tikinti sıxlığı, sosial əlaqələrin yüksək səmərəliliyi və sosial rahatlıq ilə səciyyələnir. Müasir dövrdə tarixi müsəlman şəhərləri Şərq mədəniyyəti üçün tamamilə yeni, qeyri-ənənəvi formada inkişaf etmişdir. Nəticədə, Şərqin tarixi orta əsr şəhərinə onunla vəhdət təşkil etməyən və tədricən planlaşdırılmış Avropa tipli yeni şəhər yapışıb. Bu, şəhərin tarixi özəyinin dəyişilməsinə, burada, irsi qorunma məsələsinə qarşı utilitar və səthi yanaşma isə ayrı-ayrı abidələrin hissə-hissə bərpasına gətirib çıxarıb.

Açar Sözlər: *Azərbaycan, Bakı, İçərişəhər, İslam Şəhəri Konsepsiyası, Şərq Şəhərinin Özəyi, Strukturu Yaradan Amillər*

Structural Characteristics of Muslim Cities

Abstract: One of the most attractive traits of Muslim cities is their complete harmony and unity with both the surrounding environment and the nature they inhabited. The conditions shaping the planning structure are formed with the process of gradual "densification" in residential development and "growth" around the central core.

Key Words: *East, Islamic City Concept, Orientalism, Planning of Islamic City, Eastern City Core, Structural Factors*

Giriş

Son illərdə elm aləmində İslam dövlətlərinin orta əsr memarlığı və şəhərsalma işlərinə mədəni-sivilizasiya aspektində baxılır. Tədqiqatçılar getdikcə islam şəhərinin quruluşunun formalaşma xüsusiyyətlərini öyrənməyə daha çox maraq göstərirlər. Syoberqin qeyd etdiyi kimi: "şəhər və sivilizasiya ayrılmazdır" (Bolşakov, 1984: 11; Sjoberg, 1965).

Maraqlıdır ki, islam şəhəri konsepsiyası 1920-1950-ci illərdə Əlcəzair və Suriya şəhərlərinin araşdırılması üzrə ixtisaslaşan fransız məktəbinin tədqiqatçıları tərəfindən hazırlanıb (Brown, 1986: 73-81). XX əsrin əvvəllərində sosioloqlar müsəlman şəhərlərini də tədqiq etməyə başladılar: Maks Veber şəhərin quruluş formasına dindarlığın insanların sosial həyatı və iş fəaliyyətilə əlaqəsinin təsirini araşdırırdı. Maks Veber İslam və Qərbi Avropa orta əsr şəhəri konsepsiyasını hazırladı (1994; 2001) və sənətkar əhalinin emalatxanalarının olduğu (bu emalatxanalar müəyyən iqtisadi və qanuni hüquqlara malik idilər) orta əsr yaşayış məntəqələrini şəhər hesab etməyi təklif etdi. Bu günə qədər İslam şəhərləri hələ kifayət qədər öyrənilməmişdir: şəhər strukturunun formalaşma istiqaməti xüsusilə diqqəti cəlb edir.

Müsəlman-Şərq ölkələrinin şəhərsalmasını təhlil edərkən deyə bilərik ki, burada özünəməxsus bir şəhər tipi yaranmışdır. Şimali Afrikadan Orta Asiyaya qədər olan tarixi şəhərlərin memarlıq və planlaşdırma xüsusiyyətlərini təhlil etməklə onların regional xüsusiyyətlərinə görə həm oxşar, həm də fərqli cəhətlərini müəyyən etmək olar. İnsan və təbiətin müntəzəm ahəngi ilə formalaşan Şərq şəhərləri şəhər mühitinin məskunlaşması, onun insan üçün əlverişli ölçüsü, yığcamlığı, səhihliyi və rahatlığı baxımından çox ibrətamizdir. Qeyd etmək lazımdır ki, Şərqin tarixi şəhərlərinin formalaşmasını islam dininin gəlişi ilə əlaqələndirmək olmaz – bu şəhərlərin əksəriyyəti antik dövrdən inkişaf edmişdir. Şəhərin məkanının tikinti prinsipləri minilliklər ərzində formalaşmışdır. Şərq şəhərləri sosial-məkan vəhdətinin yüksək səviyyəsi ilə səciyyələnir. Belə ki, hər bir sosial-funksional zona müəyyən məkan sərhəddi ilə əhatə edilir, şəhər strukturu isə sərhəd və hissələr arasında əlaqələrin vahid çərçivə sisteminə malikdir. İslam şəhəri mürəkkəb bir quruluşdur, onun inkişafının özünəməxsus əzəməti, müntəzəmliyi və artımı var. İslam şəhərinin cəlbedici xüsusiyyətlərindən biri də, onun həm ətraf, həm də mənimsədiyi təbiətlə tam uyğunluq, vəhdət təşkil etməsidir. Planlaşdırma strukturunun formalaşması şərti və prinsipi yaşayış məskəninin tədricən "sıxlaşma" və mərkəzi nüvə ətrafındakı "artımın" dinamik prosesinə əsaslanır.

[*] Prof. Bakı Mühəndislik Universiteti, sorucov@beu.edu.az
[**] Dos., Azərbaycan Memarlıq və İnşaat Universiteti, aytan.salimova@azmiu.edu.az
DOI :10.30546/100981.1.2024.0176

1. Istinad metodu

Mövzunun *nəzəri* təhlilini *və* araşdırılan elm sahəsiylə bağlı prinsipləri əhatə edir.

2. Məzmun

Tarixi şərq şəhərlərinin planlaşdırma strukturunun mahiyyətini anlamaq üçün sosial-formalaşdıran əsasları nəzərdən keçirmək lazımdır. Şəhərin formalaşmasının xüsusiyyətlərinə təsir edən quruluş yaradan amilləri şərti olaraq xarici və daxili hissələrə bölmək olar ki, hansı ki, burada şəhər icmasının sosial xüsusiyyətləri şəhərin inkişafında stimul yaradaraq daxili amil rolunu oynayır. Xarici amillərə təbii-iqlim, həmçinin xarici hücumçulardan qorunma şəraiti daxildir. Şəhər strukturunun inkişafının ən vacib xüsusiyyəti onun formalaşma ardıcıllığıdır.

Bakının strukturunun hərtərəfli təhlili onun tarixi inkişafının bir çox aspektlərini işıqlandırmağa - buranın ta yaradılışdan hazırkı iqtisadi, ticari və siyasi mərkəzə çevrilməsinə qədər olan inkişaf dinamikasını izləməyə imkan verir.

Bakı şəhərinin stratiqrafik və arxeoloji tədqiqatları çoxqatlı mədəni təbəqələri üzə çıxarmışdır. Şəhərin özəyi erkən orta əsrlərdə qala ərazisindəki bir təpənin başında formalaşmışdır, lakin hətta burada da, daha qədim arxeoloji mədəni qazıntılar var. İçərişəhər ərazisində aparılan qazıntılar müəyyən etmişdir ki, Bakı təpəsinin zirvəsi artıq IX əsrdə salınmışdır. Bəzi müəlliflər Bakı şəhərinin yaranma tarixini VI əsrə aid edirlər (Muradov, 1984: 7). Uzun illər aparılan arxeoloji tədqiqatlar nəticəsində əldə edilmiş arxeoloji materiallarda istehkam, dini və mülki memarlıq abidələri aşkar edilmişdir. İçərişəhərin ərazisində islamdan əvvəlki dini tikililər, məbədlər, su anbarları, hamamlar, karvansaraylar, zadəganların, tacir və sənətkarların evləri, emalatxanalar aşkarlanmışdır. Əldə olunan məlumatlar burada orta əsr müsəlman şəhərinin formalaşmasında yaranmış bir sıra zəncirvari problemlər və buranın sosial-iqtisadi, mədəni inkişaf yolu haqqında düşüncələrin ilkin mənbəyi olmuşdur.

Bakının kiçik qəsəbədən orta əhəmiyyətli şəhərə çevrilməsində həlledici amil iqtisadi və sənaye bazasının olması idi. IX - X əsrlərdə Azərbaycan şəhərlərinin əksəriyyəti, xüsusən də, Şərqin əsas karvan yolları üzərində yerləşən şəhərlər sürətlə böyüdü. Ticarətin, istehsalın və beynəlxalq əlaqələrin genişlənməsi şəhərlərin ərazisinin artmasına səbəb oldu. Bakı iqtisadiyyatının sənətkarlıq, ticarət profili burada böyük ticarət və sənətkarlıq komplekslərinin formalaşmasına kömək etdi ki, bu da, şəhərin planlaşmasına öz təsirini göstərdi.

IX-X əsrlərdə inkişaf etmiş Azərbaycan şəhərlərində tikilinin əsasını xarici qala divarı (burada, daxili şəhər "şəhristan" və xarici şəhər "rabad" adlanırdı) təşkil edirdi.

Qalanın və şəhristanın mühafizəsinə xüsusi diqqət yetirilirdi - onlar xəndəklərlə, güclü qala divarları və bürclərlə əhatə olunmuşdu. XI - XII əsrlərdə Bakı artıq bütün Şərqdə sənətkarlıq və ticarət mərkəzi kimi tanınırdı. XV - XVII əsrlərin sonu Bakı şərq və Avropa mallarının yığıldığı, Rusiya, Avropa, Türkiyə, Orta Asiya və Uzaq Şərqdən tacirlərin toplaşdığı tranzit mərkəzinə çevrildi. Qeyd etmək olar ki, ticarətin sürətli inkişafı şəhərsalma işlərinin daha da yüksəlməsinə, bütöv komplekslərin geniş şəkildə inşasına səbəb oldu: o cümlədən, karvansarayların, hamamların, dini tikililərin (hətta bu hamam və qəbirstanlıqların bir çoxu günümüzə qədər gəlib çatmışdır).

Belə bir şəraitdə şəhərin və xanlığın mühafizəsinin təmin edilməsi üçün ən mühüm zəmanət - müdafiəyə, yəni qala tikintisinə diqqətin artırılması idi. Beləliklə, istehkamların tikintisi, ilk növbədə, sırf hərbi xarakterli səbəblərdən irəli gəlirdi (İbn Sina, 1980: 58). Möhkəmlənmiş istehkam şəhərlərinin yaradılması zərurəti XVIII əsrin ikinci yarısında Azərbaycanda xüsusi şəhər tipini müəyyən edərək şəhərsalmanın inkişafına əhəmiyyətli təsir göstərdi, burada əsas vəzifə yerli feodalların iqamətgahlarının müdafiəsini təmin etmək idi. Azərbaycan şəhərlərinin - Bakı, Təbriz, Şamaxı və s.-nin plan quruluşu da oxşar sosial-iqtisadi səbəblərdən və müdafiə tələblərindən irəli gələn ümumi xüsusiyyətlərə malik idi. Eyni

zamanda qeyd etmək lazımdır ki, onların planlaşdırma strukturu aşağıdakı səbəblərdən asılı idi: əmtəə istehsalının və ictimai əmək bölgüsünün inkişaf səviyyəsi, şəhərin ölkədəki siyasi rolu, əlverişli strateji mövqeyi, yerləşdiyi yer, mühüm ticarət yolları, təbii-iqlim şəraiti (Muradov, 1984: 17).

Xarici ticarət Azərbaycanın iqtisadi və mədəni inkişafına böyük təsir göstərmişdir. Şərqin və Qərbin bir çox xalqları ilə çoxəsrlik geniş əlaqələr bu xalqların qarşılıqlı zənginləşməsinə xidmət etmiş, dünya sivilizasiyasının inkişafı üçün mühüm amillərdən biri olmuşdur.

İçərişəhərin planlaşdırma strukturunun formalaşma şərtləri - yaşayış məskənlərinin tikintisində tədricən "sıxlaşma" və mərkəzi nüvə ətrafında "artımın"ın dinamik prosesinə əsaslanır. Mərkəzləşmə forması üçün xarakterik olan nüvə ətrafında "artım" prinsipi - yeni nüvələri daxil etməklə inkişaf etmiş ərazinin sərhədlərinin genişlənməsini təmin edir.


Şəhər ərazisinin böyüməsi ictimai mərkəzin inkişafı və yaşayış məntəqələrinin sıxlaşması ilə müşayiət olunur. Tikililərin yüksək sıxlığı (həyətlər və onlara ziddiyyət təşkil edən dar, həm də, üstü açıq küçələr) sayəsində burada, qış-yay əlverişli mikroiqlim yaranır - isti və küləksiz yay günlərində havanın sərinləşməsinə, eləcə də, qış vaxtı tufan küləklərinin zəifləməsinə səbəb olur.

Şəhər quruluşunun formalaşmasına nəzər salsaq qeyd edə bilərik ki, burada öncə periferiya – qala "yaradılıb", sonra şəhərin özəyi artıq müəyyənləşmiş kommunikasiya yollarına nəzərən inkişaf edib. Sonra mühüm ticarət yollarının kəsişməsində əsas bina - Cümə məscidi tikilib. Əvvəlcə sadədən qəlizə doğru inkişaf gedib, sonra əksinə - nüvə və rabitə xətləri boyunca, yəni "milli" şəhərsalmanın başladığı yerdən inkişaf baş verdi. Eyni zamanda, hər bir sosial toplu öz məkan özəyini saxlayırdı. Şəhərin həm ətraf mühitə, həm də açıq təbiətə uyğunlaşmış əsaslı quruluşunun formalaşması belə yarandı. Yollar - təbii relyefə uyğun yerləşmiş çoxsaylı dalanlardan başlayaraq "kapilyar damarları" kimi şəhərin mərkəzinə - "göbəyinə" doğru yönəlmişdi. Əsas kommunikasiya yollarının bu tərz sıxlığı şəhər strukturunun formalaşmasında dominant rol oynayırdı. Bu yollarda şəhər strukturunun yaşayış məntəqələrinin dalan küçələri "qovuşaraq artırdı". Əgər şəhərin bu küçələri mərkəzi nüvə (məscid və bazar) tərəfindən tənzimlənirdisə, öz növbəsində nüvə də, ətrafındakı yaşayış evləri və ictimai yerləri tənzimləyirdi. Bununla da, kiçikdən (yaşayış evi) böyüyə (əsas mərkəz) qədər şəhərin bütün komponentləri qarşılıqlı əlaqə və ünsiyyətdə idi. "Rabitə" karkasının özü də sosial funksiyalara malik idi, qeyd etmək lazımdır ki, sonradan əsas kommunikasiya magistralları ticarət komplekslərinə çevrildi.

1. İçərişəhər. Bakı



2. "Kapilyar damarları"



Beləliklə, müsəlman Şərqi şəhərlərinin strukturunun konseptual vəhdəti əsasında özünəməxsus şəhər tipi inkişaf etmişdir. Bundan başqa, Şərqdə bütün orta əsrlər boyunca təbiətdə və incəsənətdə möhtəşəmlik probleminə dair fəlsəfi baxışların inkişafına töhfə verən nəhəng elmi potensial var idi. Tibb, coğrafiya, astronomiya, astrologiya və digər elmlərin inkişafı ahəngdar şəhər (yaşayış) mühiti yaratmaq üçün sosial və təbii amillərin real dərk

edilməsinə səbəb olmuşdur.

Əl-Farabi (IX-X əsrlər) "Şəhər – nümunədir, şəhər - dövlətdir" kitabında deyir ki, insanların həyati ehtiyacları onların yaşayış mühitini formalaşdırır və müxtəlif icmaların yaşadığı şəhəri mükəmməlləşdirir (Əl-Farabi, 1972). O, bunu, yəni şəhər strukturunun təkmilləşməsini insan tələbatlarının dəyişməsi və şəhərin sosial strukturunun mərhələli təşkili ilə əlaqələndirir. Nümunəvi şəhər, onun fikrincə, tamamilə sağlam bir bədəndir və onun normal fəaliyyəti orqanların qarşılıqlı rəftarı sayəsində baş verir.

İbn Sina memarlara şəhərin iqlim xüsusiyyətləri ilə bağlı tövsiyə olaraq yazırdı: memar bilməlidir... "(seçilmiş yer) küləklərə məruz qalır, yoxsa hövzədə yerləşir və orada hansı küləklər əsir, bunlar – sağlam, yoxsa soyuqdurlar, həmçinin yaxınlıqda hansı dənizlər, bataqlıqlar, dağlar və ya mədənlər var? Pəncərə və qapıların şərqə baxması, həmçinin şərq küləklərinin binaların içinə nüfuz etməsi və günəşin orada hər yerə düşməsi lazımdır, çünki havanı sağlam edən məhz günəşdir..." (İbn Sina, 1980: 58; Cahen, 1958: 59-60). Farabi (IX-X əsrlər) "Elmlərin yaranması haqqında" (1975) traktatında və İbn-Sina öz "əş-Şifa"kitabında (1980: 58); musiqi harmoniyasını hesab və həndəsə elminin vasitəsilə izah edirlər; poetikada qafiyəni son hecada görürlər (1975; 1973). Farabi hesab edir ki, "metr - ölçü vahidi - düşüncəli anlayışları məlum nisbətlərə çatdırmaq üçün icad edilmişdir" (1973: 109).

Orta əsrlərdə "mistik çalarlara" baxmayaraq şəhərin planlaşdırma strukturunun xarakterinə təsir edən elmi nəzəriyyələr də var idi. Bu, yalnız dinin elmlə sıx bağlı olduğu halda icazə verilirdi. Məsələn, Əl-Xorəzmi ölçü vahidi kimi kvadratdan istifadə edir. Şərq alimlərinin araşdırılan traktatlarının təhlili nəticəsində aydın olur ki, onların Şərq şəhərinin şəhərsalma ənənələrinin təsviri və tərifinə sistemli yanaşmalarında həmçinin, mənalı cəhətləri də açıqlayırlar. Beləliklə, xarici qabıq haqqında bilik onun məzmun nüvəsinə - bütün həqiqətlərin yeganə başlanğıc nöqtəsi olan - mahiyyətə köçürülür. Quruluşun orqanizmi haqqında onların fikirlərini şəhərin sosial funksiyasının şəhəryaradan və struktur təşkil edən rolu təsdiq edir. Eyni zamanda, onlar, şərq şəhərinin özünütəşkil və özünütənzimləməsini qeyd edirlər ki, bu da, onun daxili komponentlərinin daimi, qarşılıqlı əlaqəsi prosesinə əsaslanan şəhər strukturunun dinamik inkişafından xəbər verir. Bu, orta əsr tayfa həyat tərzində yaşayan insanın sosial-psixoloji təbiətinin xüsusiyyətlərindən və onların şəhərsalma rolundan danışmağa imkan verir. Bu baxımdan, şərq şəhərinin Əl-Farabi (1972, 1973,1975) və İbn - Xəldun (2004) tərəfindən təyin edilmiş struktur xüsusiyyətləri, eləcə də, formalaşma və inkişafın sosial şəraitinin müəyyənləşdirilməsi bu şəhərin "milliliyinə" aydınlıq gətirir və təsdiq edir.

Elmi traktatları nəzərə alsaq, qeyd etmək olar ki, şəhərsalma ənənələrinin əsasını sosial funksiyaların şəhər yaradan və struktur yaradan rolu ilə əsaslandırılan şəhər quruluşunun orqanizm xarakterinin mahiyyətinə uyğun gələn öz sistemi təşkil edirdi. Orta əsrlər "İslam" şəhərinin cəlbedici xüsusiyyətlərindən biri onun həm ətrafı, həm də mənimsədiyi təbiətlə tam uyğunluğu və vəhdətidir. Əsas "kapilyarlar" - küçələr təbii topoqrafiyaya görə mərkəzə aparır. Üstəlik, xarakterik təbii elementlər sosial xassələrlə yanaşı, toponimik elementlərə (yaşayış qruplarının, məhəllələrin adları və s.) çevrilir. Şərq şəhərinin özəyinin tərtibatını təhlil edərkən aşağıdakı struktur elementləri diqqəti cəlb edir: ilkin element - ilkin stabil hücrənin (evin) yaratdığı məkandır; vahid - ilkin elementlərin nüvə ətrafında birləşməsindən əmələ gəlir. "Məhəllə" – şərq şəhərinin səviyyəli sosial-planlaşdırma strukturunu təşkil edən elementidir. Eyni zamanda, "məhəllə"nin əhəmiyyətini qeyd etmək lazımdır. O, özündə müəyyən sanbal daşıyaraq, mühitin daxili xassələrini əks etdirən vizual və sosial-funksional kodlara malikdir. "Məhəllə" – bu gün peşəkar anlayış səviyyəsində "kvartal" mənasını qazansa da, ilkin variantda "ünvan" və ətraf mühitin məzmunlu mahiyyətini ifadə edirdi. İstənilən səviyyədə olan bütün şəhər icmalarını müəyyən səviyyənin xarakterik xüsusiyyətlərini nəzərə alaraq "məhəllə" adlandırmaq olar. Məhəllə şəhərin müvafiq hissəsinin sosial-təbii məzmunu ilə əlaqəli sosial-məkan əlamətidir, şəhərin və


quruluşun təbii və vizual xüsusiyyətlərinin kodlaşdırılmasıdır.

Kapitalizm dövründə istehsalatın sürətlə genişləndiyi bir çox tarixi müsəlman şəhərləri orta əsr Şərq ənənələri ilə heç bir əlaqəsi olmayan tamamilə yeni təməl üzərində inkişaf etdirildi. Nəticədə, müntəzəm olaraq layihələndirilmiş yeni, Avropa tipli şəhər qısa müddətdə tarixi orta əsr şəhəri ilə birləşərək vahid orqanizmə çevrildi. Bu prosesi İçərişəhərin (Bakı) timsalında yaxşı təsvir etmək olar. İçərişəhərin orta əsrlər dövründə formalaşmış şəhərsalma strukturu yüksək tikinti sıxlığı, sosial təmasların yüksək səmərəliliyi, sosial rahatlıq, inkişaf və transformasiya imkanları, ekoloji rahatlıq ilə səciyyələnir. Planlaşdırma strukturunun formalaşması şərtləri və onların formalaşma prinsipləri yaşayış məskənlərinin inkişafının mütəmadi "sıxlaşması" və mərkəzi nüvə ətrafında dinamik şəkildə“böyüməsi” prosesinə əsaslanır. Struktur yaradan bu iki prinsip özəyin təbii və sosial amillərə qarşı yüksək uyğunlaşma qabiliyyətini göstərir və inkişaf prosesində şəhər torpaqlarından ən səmərəli şəkildə istifadə üçün (yüksək sıxlıq və kompakt inkişaf) əsas verirlər. Onların sayəsində şərq şəhərinə orqanizmin - özünüinkişaf və özünütənzimləmə, dinamiklik və hərəkətlilik xüsusiyyətləri verilib. Sıxlaşma prinsipi müasir dövr də daxil olmaqla, bütün tarixi inkişaf dövrlərində üzə çıxan şəhərsalma prinsiplərindən biri hesab edilə bilər. Bu prinsipin sabitliyi ailənin obyektiv ehtiyacları ilə izah olunur. Mərkəzləşmə forması üçün xarakterik olan məkan nüvəsi ətrafında "artım" prinsipi yeni nüvələrin cəlb edilməsilə inkişaf etmiş ərazinin sərhədlərinin genişlənməsini təmin edir. Strukturyaratmanın hər iki prosesi bir-birinə bağlıdır - həm kompakt formada, həm də kommunikasiya arteriyaları boyunca mərkəzin ərazi artımının baş verməsi onların əlaqəsini şərti olaraq möhkəmləndirir.

Təəssüflər olsun ki, Şərqin digər şəhərlərində olduğu kimi Bakıda da, biz iki əsrdir ki, şəhərsalmanın Avropa şəhərsalma elminin nailiyyətlərinə əsaslandığını, Avropanın şəhər mühiti və həyat tərzi haqqında təsəvvürləri nöqteyi-nəzərindən baxıldığını görürük. Bu, tarixi nüvənin özünün təhrif olunmasına gətirib çıxarıb. Eyni zamanda irsi qorunma xüsusunda utilitar və səthi yanaşma ayrı-ayrı abidələrin hissə-hissə rekonstruksiyasına gətirib çıxarıb və adi tarixi yaşayış binaları dəyərli hesab edilməyib.


Nəticədə tarixi mühit pozulub. Köhnə ilə yeni - ənənəvi olaraq şərqli və avropalaşmış münasibətlər - miras əsasında deyil, köhnə şəhər strukturunun yenidən qurulması və yeni şəhərin paralel inkişafı əsasında quruldu. Eyni zamanda, inkişaf etməkdə olan şəhər sistemində köhnə şəhər tikililərinin əlverişli yerləşməsinə baxmayaraq, erkən orta əsr strukturunda deformasiya baş verdi. İş burasındadır ki, yeni şəhər və onun şəhərsalma prinsipləri birgə yaşayışın lap əvvəlindən köhnə tikililərin yenidən təşkili və qurulmasını tələb edirdi. Oxşar proseslər Şərqin bir çox orta əsr şəhərləri üçün xarakterikdir.

3. İçərişəhər. Bakı



Son iki əsrdə İçərişəhərdə bir neçə yenidənqurma layihəsi təklif olunub. Onların arasında qala divarlarının genişləndirilməsini təklif edən rus mühəndislərinin irəli sürdükləri layihələr də var. Birinci layihə qalanın cənub-qərb istiqamətində demək olar ki, iki dəfə genişləndirilməsini nəzərdə tuturdu. İkinci layihə, mühəndis mayor Truzonun (1807) təklifi ilə şəhərə toxunmadan, qalanın şərq tərəfində dördbucaqlı ulduz formalı qüllənin ucaldılması fikrini irəli sürürdü.

4. Təzəpir məscidi – 1918 il. Bakı



5. Təzəpir məscidi



1935-ci ildə İçərişəhərin təklif olunan rekonstruksiya layihəsi köhnə şəhəri mahiyyətcə dağıtdı. Layihə, yenidən tikilməli olan Şirvanşahlar Sarayı kompleksi istisna olmaqla, bütün orta əsr şəhər binalarının sökülməsini nəzərdə tuturdu. Layihə iki məhəllə qrupunun yaradılmasını nəzərdə tuturdu – Şirvanşahlar Sarayının ətrafında və Şamaxı yolunun ərazisində. Bu iki qrup arasında ümumi ərazinin üçdə birini təşkil edən boş sahə nəzərdə tutulurdu. Müharibədən əvvəlki Bakının köhnə şəhər strukturunun yenidən qurulması layihələri arasında professor L.A.İlyinin rəhbərliyi ilə Leninqrad Giproqorunun təqdim etdiyi layihəni də, qeyd etmək olar (1934-1937). O, 1835-ci il layihəsini xatırladırdı. Burada İçərişəhərin planında çətinliklə nəzərə çarpan radial-halqa sisteminin işlənib hazırlanması təklif edilirdi.

Kütləvi tikinti ideyalarının əks olunduğu XX əsrin 60-cı illərində ən yanlış layihələr təklif edildi. 1961-ci ildə Bakgiprogor memarları tərəfindən təklif edilən İçərişəhərin rekonstruksiya və yenidən tikilməsi üçün çəkilən layihələrdə köhnə şəhərin sökülməsi, daha sonra onun yerində 9-12 mərtəbəli yaşayış binalarının, üç 20 mərtəbəli və bir çox 5 mərtəbəli yaşayış binalarının (Sadıxov G., Marqulova L.) və nəhayət, Bakgiprogor tərəfindən hazırlanmış 1963-cü il layihəsində - köhnə şəhərin ərazisində təxminən 2,5 hektar (köhnə şəhərin ümumi sahəsi - 21 hektar idi) yer tutan yalnız qoruğun saxlanmasını təklif etdi.

Qeyd edək ki, hazırda mövcud olan "səhralar" yaxud müasir binaların "küftəsi" bu layihənin nəticəsidir. Ümumiyyətlə, bu layihələrin hamısını həyatın özü rədd edib. Əvvəla, köhnə şəhər strukturunun rekonstruksiya və yenidən planlaşdırılması zamanı buraxılmış məxsusi səhvlərdən biri tarixi tikililərə başqa bir irimiqyaslı tikilinin yamaq edilməsi idi. Bununla da, əhəmiyyətli dərəcədə, funksional xarakterli bir dəyişiklik baş verdi. Bütün bunlar təbii ki, yeni tikinti üçün ayrılmış bəzi ərazilərdə söküntü ilə başlayıb. Belə ki, heç vaxt başa çatmayan "Xalça evi"nin tikintisi üçün köhnə şəhərin bütün məhəllələri sökülüb.

Baxımlı mənzərə axtarışında olaraq ətrafdakı tarixi tikililərin təmizlənməsi nəticəsində Azərbaycanın orta əsr şəhərlərinin bir çox digər nadir abidələri də savadsız dağıdılmaya məruz qalmışdır. Oxşar hallar Bakıda dəniz mənzərəsinin qarşısını kəsən köhnə şəhərin fonunda iki hündürmərtəbəli yaşayış binasının tikintisi zamanı, Şuşada keçmiş ticarət küçəsində standart 5 mərtəbəli yaşayış binasının tikintisi zamanı. Ordubadda - meydanın cənub hissəsində yaraşıqsız 4 mərtəbəli standart inzibati binaların tikintisi zamanı baş verib.

6. İçərişəhər. Bakı



Yanlış rekonstruksiyanın xarakterik mənfi xüsusiyyətləri arasında aşağıdakılar əsas yer tutur:

- Baxımsızlıq - funksional "boşluq", məscidlərin, karvanxanaların, hamamların və digər ictimai binaların düzgün idarə edilməməsi və ya, onlardan başqa məqsədlər üçün - kommunal və məişət anbarı kimi istifadə edilməsi;
- Köhnə şəhərin müasir həyatının sürətlə inkişaf edən ritminə həddən artıq aktiv və sistemsiz şəkildə daxil edilməsi – köhnə şəhərin müxtəliftəyinatlı inzibati tikililərlə qeyri-mütəşəkkil funksional şəkildə yüklənməsi.

İçərişəhər nümunəsindən istifadə edərək qeyd etmək olar ki, bu hallar strukturun təkcə maddi-məkanının deyil, həm də vahid mahiyyətinin məhvinə səbəb olmuşdur. Bunu hər hansı bir konkret dövrə aid etmək olmaz, çünki yuxarıda qeyd olunan səbəblərin hamısı bu gün də geniş yayılmışdır.

Sadalanan nümunələrin şəhərsalma irsinə aid (həm ayrı-ayrı obyektlərə, həm də bütövlükdə şəhərə) praktiki və nəzəri münasibətin özünəməxsus xüsusiyyəti "məzmunca" mənəvi dəyərlərin, həmçinin, nəticədə kompleksin məkan həllinin itirilməsidir.

7-8. İçərişəhərin qoşa qala qapısı





Bu gün İçərişəhərin muzeyləri - bazar meydanı və digərləri həm iqtisadi, həm də estetik baxımdan özünü doğrultmur. Şəhərsalma və sosial funksiyadan məhrum olan orta əsr bazarı, əvvəllər şəhər orqanizminin "ürəyi"- indi açıq muzeyə çevrilib. Deməli, istər memarlıq kompleksinin, istərsə də İçərişəhərin özünün hər hansı ekoloji və maddi-məkan bütövlüyündən danışmağa ehtiyac yoxdur. Eyni zamanda, funksional fəaliyyəti baxımından onu əhatə edən köhnə və yeni tikililər arasında kəskin ziddiyyət vardır. Beləliklə, köhnə şəhərin bir hissəsi yeni tikililərlə həmsərhəd olan ictimai mərkəzin bir hissəsinə daxil olub. Qalanın ətrafında böyük, funksional aktiv ictimai binalar - filarmoniya, incəsənət muzeyi, icra hakimiyyətinin binası, universitet və elmi institut, metro stansiyası və s. yerləşir ki, bu da tarixi nüvə ilə ətrafdakı nəqliyyat halqası arasında bufer zonası yaradır. Üstəlik, qeyd etmək lazımdır ki, qalanın diametrik olaraq yerləşən hər iki əsas girişi - Salyan və Şamaxı qapıları həm piyadalar, həm də nəqliyyat üçün fəaliyyət göstərir. Darvazada hər iki tərəfdə nəqliyyat qovşaqları var. Köhnə şəhərin ictimai mərkəzin aktiv həyatından açıq şəkildə təcrid olunması müşahidə olunur.

İçərişəhərin Qoşa Qala qapısının yaninda divar boyu restoranlar tikilib. "Qubernator bağı"nın vəziyyətini ayrıca qeyd etmək lazımdır - burada kafe və restoranların sistemsiz,

xaotik yerləşdirilməsi harmoniya hissini pozur və parkın görkəmini dəyişir.

Belə ərazilərin "cındır-yamaq üsulu" ilə rekonstruksiyası qiymətli şəhər mühitinin elementlərinin təhrif edilməsinə, yaxud tamamilə itirilməsinə, ərazinin səmərəsiz istifadəsinə, əraziyə normadan artıq antropogen yüklərin artırılmasına və s. gətirib çıxarır. Eyni zamanda tikintinin kompozisiya tamlığı pozulur və nəticədə memarlıq mühitindəki rahatlıq səviyyəsi düşür.

Müasir bir şəhərdə köhnə şəhərin srtukturunun qorunma dərəcəsi onun inkişaf etməkdə olan şəhər strukturundakı yerindən asılıdır. Tarixi şəhərlərin tarixi binaları "tarixi mərkəz" anlayışı ilə sinonimləşmişdir. Son illərdə məhz bu ərazilər yeni, çox vaxt hündürmərtəbəli tikintilərin "aqressiv işğalına" məruz qalmışdır. Bu cür münasibət çox vaxt bir sıra mənfi nəticələrə gətirib çıxarır, məsələn, dəyərli şəhər mühitinin elementlərinin təhrifi, yaxud tamamilə itirilməsi, ərazidə antropogen yüklərin həddindən çox artması və s.

Bu prosesi dayandırmaq mümkün deyil, çünki hər hansı bir şəhərin inkişafı həmişə onun mərkəzi nüvəsinin dəyişilməsilə ən aydın şəkildə əks olunur. Belə şəraitdə mövcud resursların (ərazi, memarlıq, bədii, texniki və iqtisadi göstəricilər) real qiymətləndirilməsi əsasında tarixi şəhər mühitində şəhərsalma fəaliyyətinin tənzimlənməsi daha məqsədəuyğundur. Bu göstəricilərin toplanmasıyla şəhərin tarixi ərazisinin şəhərsalma potensialının tam səciyyələndirilməsi mümkün olacaqdır. Belə bir üsul təkcə ərazinin gələcək şəhərsalma imkanlarını deyil, həm də istənilən dəyişikliyin istiqamət və miqyasını təyin etməyə imkan verəcəkdir. Pozitiv təəssürat yaratmaqla turizm sənayesinin inkişafında uğur qazanmaq olar.

Müasir İslam şəhərlərinin memarlıq siması hazırda dünyanın ən kəskin problemidir. Bu gün biz hələ də, İçərişəhərin tarixi vəhdətinin parçalanması prosesini dayandıra bilərik. Tarixi tikinti ehtiyatlarından səmərəli istifadəni təmin etmək üçün aşağıdakı prinsiplərə riayət etmək tövsiyə olunur:

- "Yeni" obyektlərin yerləşdirilməsi zamanı memarlıq, bədii, sosial-iqtisadi və ekoloji amillərə uyğunluğunun nəzərə alınması;
- Bənzər funksiyalı obyektlərin ərazi qütbləşməsinin təşkili;
- Tarixi məkan quruluşunu qorumaq və inkişaf etdirməklə tikintinin uyğunlaşdırılması.

Nəticə

İçərişəhərin hələ də həllini tapmayan əsas problemlərindən biri - köhnə ilə yeninin qarşılıqlı funksional asılılığı - köhnə tarixi tikililərin müasir funksional sistemə daxil edilməsi xüsusiyyətidir. Nəticədə tarixi mühit pozulub. Köhnə ilə yeninin münasibəti- ənənəvi şərq və avropalaşma – təməlli şəkildə deyil, köhnə şəhər strukturunun rekonstruksiyası və ya, yeni şəhərin paralel, yanaşı inkişafı sayəsində qurulmuşdur.

ƏDƏBİYYAT

Bolşakov, O.G. (1984). Yaxın Şərqin orta əsr şəhəri. VII - XIII əsrin ortaları. Moskva: Elm.

Brown, K. (1986). Müqayisəli perspektivdə Yaxın Şərq şəhərləri, London: Ithaca Press.

Cahen, C. (1958). Zur Geschichte der Stadlichen Gesellschaft im islamishen Orient des Mittelatters.

Əl-Farabi (1972). Fəlsəfi traktatlar, Alma-Ata: Elm.

Əl-Farabi (1975). Ağıl və elm haqqında. Almatı: Elm.

Əl-Farabi (1973). Sosial və etik traktatlar. Almatı: Elm.

İbn Xəldun (2004). "Ərəblərin, farsların, bərbərlərin və onların müasirlərinin böyük qüdrətə malik olan dövrləri haqqında ibrətamiz nümunələr kitabı və mesajlar divanı"na proleqomena // Dünya iqtisadi fikri: Əsrlər prizmasından: In. 5 cild. 1-ci cild: Kapitalizmə qədər sivilizasiyanın başlanğıcından. Moskva: Elm.

İbn Sina (1980). Sevimlilər. Moskva: Elm.

Muradov, V. (1983). Orta əsr Azərbaycan şəhərləri. Bakı: Maarif.

Muradov, V. (1984). Azərbaycanda şəhərsalma XIII - XVI əsrlər. Bakı: Qarağac.
Sjoberg, G. (1965). Sənayedən əvvəlki şəhər, keçmiş və indi. N.-Y.
Veber, M. (1994). Cəmiyyətin görüntüsü. Sevimlilər. Moskva: Hüquqşünas.
Veber, M. (2001). İqtisadiyyatın tarixi. Moskva: Kanon-Press-C.